**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ ÜMUMİ YIĞINCAĞI**

# QƏRAR

№ 1/14

Bakı şəhəri 29 aprel 2015-ci il

AMEA-nın Biofizika İnstitutunun
yaradılması haqqında

Müasir dövrdə dünyada sürətlə inkişaf etməkdə olan elm sahələrindən biri biofizikadır. Qabaqcıl dünya alimlərinin fikrincə, XXI əsr biologiyada, o cümlədən biofizikada keyfiyyətcə yeni, ciddi elmi irəliləyişlər əsri olacaqdır. Bu sahənin Azərbaycanda da inkişafını təmin etmək məqsədilə AMEA Rəyasət Heyətinin 27 fevral 2014-cü il tarixli, 8/10 №-li qərarı ilə AMEA-nın Fizika İnstitutu nəzdində Biofizika və Smart Materiallar Mərkəzi yaradılmışdır. Biofizika və smart materialları ilə bağlı elmi istiqamətin aktuallığını və vacibliyini, habelə göstərilən sahədə tədqiqat və tətbiq işlərinin daha səmərəli aparılmasını təmin etmək məqsədilə AMEA Rəyasət Heyətinin 15 aprel 2015-ci il tarixli, 9/37 №-li qərarı ilə AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi nəzdində Biofizika İnstitutunun yaradılması haqqında müvafiq qərar qəbul edilmişdir.

Yuxarıda qeyd olunanları və AMEA Rəyasət Heyətinin vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı **QƏRARA ALIR:**

1. AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi nəzdində Biofizika İnstitutu yaradılsın.
2. AMEA-nın Biofizika İnstitutunun yaradılması ilə bağlı müvafiq dövlət qurumları qarşısında vəsatət qaldırılsın.
3. AMEA Rəyasət Heyətinə tapşırılsın ki, institutun yaradılmasından irəli gələn digər təşkilati və texniki məsələləri həll etsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev